Şakir Albalıyevlə birinci dəfə redaksiyada tanış olmuşam. Onda "Kredo" qəzetində məsul katib vəzifəsində çalışırdı. İlk görüşdən sadəliyi, təmkini, mehribanlığı, istiqanlılığı ilə yadımda qalan bu oğlanın yazılarını həmişə mətbuat səhifələrindən izləmişəm.

Həm dissertant kimi elmi yazılarını, həm publisistik nəsr dilini, həm də arasıra rast gəldiyim şeirlərini oxuduqca ondakı tükənməz yaradıcılıq mənbəyinə məəttəl qalmışam. Ən başlıcası da məni Şakir müəllimlə bağlayan ondakı şəxsiyyət bütövlüyüdür. Belə ki, birdən görürsən ki, bəzi qələm sahibləri heç də həyatda yazdıqları kimi olmurlar. Yazdıqları başqa şey deyir, əməlləri başqa. Amma Şakiri ilk gündən necə görübtanımışamsa, sonralar da hər dəfə Lerikdən Bakıya gələndə, onunla görüşüb müsahib olanda eləcə dəyişməz xarakterdə görmüşəm onu, yəni bir siması, bir əqidəsi olan adam kimi tanımışam onu. Dilindəki ilə ürəyindəki birdir. Olduqca saf əxlaqa, yüksək mənəvi keyfiyyətlərə malik gəncdir. İndiki əyyamda belələri çox azdır. Kaş bütün Azərbaycan gəncləri onun kimi savadlı, ürəyi təmiz, əxlaqı saf, məsləki bir, dözümlü və təpərli olaydılar. Mən onunla həmişə görüşəndə, söhbət edəndə elə hiss edirəm ki, Lerikdən olan bir sadə kənd adamı ilə danışıram. Şükr edirəm ki, şəhər mühitində yaşasa da, kənd saflığını özündə qoruyub-saxlayanlar var.

Mən Şakirin rəftarında, danışığında onun yaşına yaraşmayan bir piranilik - ağsaqqallıq görmüşəm. "Ağsaqqallıq yaşa baxmır" məsəlini xatırlayıram onu görəndə. Ən azı Şakir yaşına görə ağsaqqal olmasa da, ləyaqətli qarasaqqaldır. Ağsaqqal-qarasaqqal sözünə baxmaq xalqımızın ədəbindən sayılıb. Bu mənada Şakir müəllimin sözünə, məsləhətinə ən azı qarasaqqal öyüdü, nəsihəti kimi baxmaq lazımdır. Əgər məndən soruşsaydılar ki, indiki zəmanədə başına görə ağsaqqal kimi sayardınız, yaxud ədəbinə-kamalına görə ləyaqətli qarasaqqal kimi kimi qəbul edərdiniz? Onda çox ürəklə, çəkinmədən Şakiri belələrinə ən layiqli nümunə göstərərdim. Həm sözünə görə, həm özünə görə mənim qəlbimdə özünə belə yer edib Şakir.

# Sözü və əməli bir olan ziyalı

Sözü ilə əməli bir olan ziyalıdır Şakir müəllim. Bu yaxınlarda qəzetdən oxudum ki, o, filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. Çox sevindim. Çünki alimlərimizin cərgəsinə yüksək əxlaqi mənəviyyat sahibi olan bir gənc qoşuldu. Yazdığı, dediyi ilə əməli işi bir olan bir alim...

Sözümün sonunda bir şeyi də demək istərdim: Şakir Albalıyev təkcə Cəbrayılın yetirməsi deyil, bütöv Azərbaycanın övladıdır. Cəbrayılın qoynunda doğulubböyüsə də, bütün Azərbaycan üçün doğma olan, bütöv Azərbaycan gəncliyini ləyaqətlə təmsil edən insandır. Cəbrayıllılar fəxr edə bilər ki, Şakirin simasında saf və mənəviyyatlı Azərbaycan gənci yaşayır.

Şakir qardaşımızı alim adı alması münasibətilə ürəkdən təbrik edir, daha yeni nailiyyətlər və ailə səadətinə qovuşmaq arzulayıram!

**Dərin hörmətlə:**

*Zəfər ƏLİYEV,*
*Lerik rayonu, Bradi kəndi-*
*"Xudafərin" qəzeti,*
*15 fevral 2007-ci il*

